Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



# Təbiət fədaisi, elm təşnəsi-Həsən Əliyev

Həsən Əliyevin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı -2017**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Səməd Məlikzadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**"Təbiət fədaisi, elm təşnəsi - Həsən Əliyev"** metodik vəsait / tərt.ed. A.Əliyeva; red. S.Məlikzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2017.-38 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2017**

## Tərtibçi

Dünyada elə şəxsiyyətlər olur ki, onlar ömürlərini millətin yolunda şam kimi əridir, hələ sağ ikən əbədilik qazanır və həyatla vidalaşandan sonra sanki ikinci ömür yaşayır, daim xatırlanırlar. Tarixdə belə şəxsiyyətlər hələ sağlıqlarında ikən özlərinə abidə ucalda bilirlər. Xalqımızın görkəmli oğlu, əməkdar elm xadimi, dövlət mükafatı laureatı, təbət vurğunu akademik Həsən Əliyev belə şəxsiyyətlərdən idi. Həsən Əliyevin elmi-içtimai fəaliyyətinin spektri çox geniş və hərtərəfli olmuşdur. O, görkəmli təbiətşünas və coğrafiyaçı, eyni zamanda torpaqşünas və ekoloq alim idi. 50 ildən artıq bir dövrü əhatə edən elmi fəaliyyəti dövründə onun Azərbaycanda torpaqşünaslıq elminin inkişafında və formalaşmasında böyük rolu olmuşdur. Akademik Həsən Əliyevin Azərbaycanda coğrafiya elminin inkişafında, xüsusilə qloballaşmış ekocoğrafi problemlərin həlli sahəsində əvəzsiz tövsiyyələri və xidmətləri olmuşdur. Onun elmi-içtimai yaradıcılıq fəaliyyəti olduqca geniş və çoxsahəlidir. O, görkəmli təbiətşünas və coğrafiyaçı, eyni zamanda böyük torpaqşünas kimi tanınırdı. Akademik H. Əliyev Azərbaycanı daim çiçəklənən varlı, qüdrətli bir dövlət kimi görmək istəyi ilə yaşayan, tariximizi, folkloru dərindən bilən vətənpərvər alim, qayğıkeş bir ziyalı idi. Təkrarsız zəka sahibi olmuş bu şəxsiyyətlə ünsiyyət zamanı müxtəlif elm sahələrində çalışan mütəxəsislər öz həmkarları ilə fikir mübadiləsi aparardılar. Coğrafiyaçılar onu coğrafiyaşünas, torpaqşünaslıq sahəsində çalışanlar torpaqşünas, botaniklər isə onu botanik hesab edirdilər. O, Azərbaycan xalqının çox hörmətlə yanaşdığı, dərin rəğbət bəslədiyi elm xadimi sadə, zəhmətsevər, yüksək və həssas duyuma malik ziyalı idi. Əminliklə deyə bilərəm ki, vətənə təmənnasız xidməti ilə

insanların yaddaşında əbədi iz buraxmış şəxsiyyətlər içərisində Həsən Əliyevin özünəməxsus yeri var. Ömrünü xalqının xoşbəxtliyinə həsr etmiş bu böyük şəxsiyyətin həyatı və yaradıcılığı gələcək nəsillər üçün əsl tərbiyə və nümunə məktəbidir. H.Əliyevin ömür yolu bəşəriyyətə və insanlığa nümunə, örnəkdir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Respublikanın Əməkdar elm xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, kənd təsərrüfatı elmləri doktoru, professor Həsən Əlirza oğlu Əliyev çox böyük və samballı həyat yolu keçmişdir. Akademik Həsən Əliyev ömrünün 60 ilə yaxın bir dövrünü elmimizin inkişafına sərf etmişdir. Ucsuz-bucaqsız səhralardan başlamış başı qarlı uca dağlara qədər hər şeyi vəhdətdə görməyi bacaran, xırda cücərtidən tutmuş iri gövdəli ağaclara qədər bütün bitkiləri sevən, onları boy atdıqları ana topağın “ürək döyüntülərini” hiss edən, təbiətin mühavizəsinin, atmosferin təmizliyinin daim qeydinə qalan fədakar səxsiyyət, akademik Həsən Əlirza oğlu Əliyevin 110 yaşı tamam olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *“Təbiətin özü kimi əbədi”* adlanır və akademik H.Əliyevin həyat və yaradıcılığından bəhs edir. II hissədə isə Həsən Əliyevin yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Təbiət fədaisi, elm təşnəsi - Həsən Əliyev

Həsən Əlirza oğlu Əliyev 15 dekabr 1907-ci ildə Yelizavetpol quberniyası, Zəngəzur qəzasının Comərdli kəndində halal və zəhmətkeş bir ailədə anadan olmuşdur. H.Əliyev böyük ailənin ilki idi. Onun uşaqlıq dövrü çox mürəkkəb və qarışıq illərə təsadüf etmişdir. Zəngəzur qəzası o dövrdə od içində idi. Ermənilərin bu bölgələrimizdə törətdikləri cinayətləri öz gözləri ilə görən Həsən müəllim sonrakı illərdə həmin günləri həyatının ən acı anları adlandırmışdır. 1917-ci ildə Əliyevlər ailəsi bir çox azərbaycanlılar kimi öz doğma yurdlarını tərk edərək Naxçıvana köçürlər. 10 yaşlı Həsən ehtiyac üzündən əmək fəaliyyətinə başlayır. Çünki bu illərdə bacı-qardaşlar balaca idilər. Hüseyn, Heydər, Cəlal və Aqil eynilə Surə, Şəfiqə və Rəfiqə də kiçik olduqları üçün Həsən Əliyev onların da qayğısına qalmalı idi. Bunun nə demək olduğunu təsəvvür etmək çox çətindir. Hər bir qardaş və bacıya yol göstərmək, böyüklük etmək lazım idi. 1924-cü ildə o, təhsilini axşam məktəbində davam etdirmişdir. Özünü bacarıqlı, qabiliyyətli göstərdiyinə görə təhsilini davam etdirmək üçün ona Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna daxil olmaq üçün zəmanət verilir. Texnikumda oxuyarkən Gəncə dairəsi üzrə yaradılmış “Pambıq ziyanvericilərinə qarşı mübarizə” məntəqəsində təlimatçı işləmişdir. 1930-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitunun (indiki Kənd Təsərrüfatı Akademiyasının) aqronomluq fakültəsinə qəbul edilir və oranı vaxtından əvvəl bitirir. Təhsildə qeyri-adi qabiliyyət və bacarıq göstərdiyinə görə 1932-ci ildən Elmi Tədqiqat Pambıqçılıq İnstituna aspiranturaya dəvət olunur və oranı 1934-cu ildə başa vurur. Bir müddət Ucar rayonunda Şirvan zonası təcrübə stansiyasının direktoru vəzifəsində işləyir. 1936-cı illərdə SSRİ

EA-nın Azərbaycan filialı torpaqşünaslıq bölməsinin elmi işçisi və elmi katibi vəzifəsində çalışır. Akademik H.Əliyev sonradan tədqiqat institutlarının, bölmə və şöbələrin təşkilində xüsusi xidmət göstərir. Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitunun elmi işlər üzrə direktor müavini (1944-1949), eyni zamanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim (1945-1949), Azərbaycan SSR Elmlər Akademiyası Botanika İnstitunun direktoru (1949-1952), Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirinin birinci müavini və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi (1952), Azərbaycan SSR Elmlər Akademiyasının akademik-katibi (1952-57), Azərbaycan SSR Elmlər Akademiyası Torpaqşünaslıq və Aqrokimya İnstitunda laboratoriya müdiri (1957-1967), Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitunun direktoru (1968-1993) vəzifələrində işləmişdir. Əsas elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə edir. Akademik H.Əliyev keçmiş SSRİ-də ümumi əkinçilik və təbiəti mühafizə sahəsində görkəmli alim sayılırdı. O, Cənubi Qafqaz torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili H.Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Azərbaycan təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində onun xidmətləri əvəzsizdir. O, cəmiyyətin ekoloji

maariflənməsinə, təbiətin mühafizəsi haqqında biliklərin təbliğinə böyük əhəmiyyət verirdi.

Həsən Əliyevin "Həyəcan təbili" əsəri (Bakı,1976,1982) təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət, çağırışdır. Əliyev coğrafiya elmləri üzrə bir sıra problem şuralarının sədri və üzvü olmuşdur. Onun yüksək ixtisaslı kadrlar hazırlanmasında böyük xidməti var. Azərbaycan Respublikası Təbiəti Mühafizə Komitəsinin yaradıcısı və cəmiyyətinin sədri və Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti (1975-1990), "Azərbaycan təbiəti" məcmuəsinin baş redaktoru (1975-ci ildən) idi. Əliyev Yunanıstan (1958), Polşa (1960), ABŞ (1964, 1977), Rumıniya (1966), İsveçrə (1966), Avstraliya (1968), Kanada (1978), Yaponiya (1980), Almaniya (1981) və s. ölkələrdə keçirilmiş beynəlxalq konqreslərdə məruzələr etmişdir. O, eyni zamanda Böyük Vətən Müharibəsinin (1941-1945) iştirakçısı olmuşdur. Bununla yanaşı H. Əliyev Azərbaycan SSR Ali Sovetinin (10-11-ci çağırış) deputatı olmuşdur. Vətən müharibəsi, Şərəf nişanı ordenləri, SSRİ Elmlər Akademiyasının N. İ. Vavilov adına Qızıl medalı ilə təltif edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutu H.Əliyevin adınadır. Dünya Universitetinin elmi və mədəniyyət üzrə doktoru (ABŞ), İngiltərə Kraliça Biblioqraflar Cəmiyyətinin həqiqi üzvü olmuşdur. Azərbaycanın əməkdar elm xadimi adına, Azərbaycan Respublikasının Dövlət mükafatı laureantı, Vavilov adına medala layiq görülmüşdür. Böyük insan, akademik Həsən Əliyevin ən böyük mükafatı isə xalqın məhəbbətini qazanmaq olmuşdur. XX əsrin cəfakeşi Həsən Əlirza oğlu Əliyev 2 fevral 1993-cü ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Görkəmli alim Həsən Əliyevin anadan olmasının 110 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər; kitab müzakirəsi, oxucu konfransı, icmal, dəyirmi masa, ədəbi-bədii gecə və s. keçirilə bilər. Bu böyük şəxsiyyətin yaradıcılığını, ölkəmizə olan qayğı və xidmətlərini gənc nəslə və oxuculara çatdırmaq məqsədilə kitabxanada kitab sərgisi təşkil oluna bilər. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Təbiət elminə həsr edilmiş ömür", "Təbiət vurğunu alim", "Böyük təbiətşünas-alim", "Elm xadimi-Həsən Əliyev", "Ömrünü vətənə həsr etmiş görkəmli alim", "Təbiət və elmə bağlı ömür", "Həsən Əliyev-110", ""Həyəcan təbili" nin sədaları", "Azərbaycan elminin Həsən Əliyev zirvəsi", "Təbiət qədər ədəbiyaşar alim", "Fədakar alim ömrü", "Ziyalı zirvəsi-Həsən Əliyev", "Xeyirxah insanın xeyirxah əməli", "Nurlu şəxsiyyət", "Xatirəsi əziz tutulan insan-Həsən Əliyev", "Ötmə, an, dayan", "Unutmaz o dağlar, o düzlər səni", "Təbiətin və insanların böyük dostu", "Günəşə inanan insan", "Çay kimi çağlayan ömür", "Görkəmli təbiətşünas, böyük ziyalı", "Elm fədaisi", "Gözəlliyin poetik ifadəçisi, qayğıkeş insan", "Təbiəti öz varlığı qədər sevən insan", "Təbiətin özü qədər əbədi", "Təbiətşünaslıq elminin iftixarı", "Xatirəmin yaşıl işığı", "Unudulmaz elm xadimi", "Canı və varlığı təbiət olan alim-Həsən Əliyev", "Azərbaycan elminin korifeyi". Bundan əlavə H.Əliyevin müxtəlif illərdə çəkilmiş foto stendi, kitabları və onun haqqında dövri mətbuatda yazılan materiallar sərgidə öz yerini alır. Görkəmli insanların akademik haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə verilir.

**Görkəmli şəxsiyyətlərin Həsən Əliyev haqqında söylədikləri:**

Həsən Əliyevi həmişə əli qələmli, qoltuğu kitablı görmüşük. Həmişə axtarışda, həmişə qayğıda.

**Məmməd Araz,**
*Xalq şairi*

Həsən Əliyev Azərbaycanın torpağını işıqlandıran, torpağın üstünü, xüsusən onun meşələr və heyvanlar aləmini dərindən bilən, torpağımızı qarış-qarış gəzib dolanan alimlərdən idi.

**Şamil Qurbanov,**
*Professor*

Akademik Həsən Əliyev ömrünün 70 ilə qədərini təbiət haqqında elmi axtarışlara, müxtəlif dövlət və içtimai vəzifələri yerinə yetirməyə sərf etmişdir.

**Oqtay Məmmədov,**
*"Maarif" nəşriyyatının əməkdaşı*

Təbiəti qorumaq, həm də millətimizin gələcəyini qorumaq, onun maddi rifahını yaxşılaşdırmaq deməkdir. Təbiətə Həsən Əliyev qədər həssas və qayğılı münasibət göstərən ikinci bir şəxs təsəvvür etmək çətindir. Həsən müəllimin bir tədqiqatçı kimi özünəməxsusluğu ondan ibarətdir ki, o elmi tədqiqatların nəticələrini həyata tətbiq etməyə çalışdı.

**Abel Məhərrəmov,**
*Professor*

Həsən Əliyev şəxsi keyfiyyətlərini, xalqı qarşısında təmənnasız xidmətlərini, çoxtərəfli elmi, içtimai fəaliyyətini xatırlayanda yadıma Həsənbəy Zərdabi düşür.

**Qərib Məmmədov,**
*Professor*

Həsən Əliyev elmdə olduğu kimi, həyatda da öz sözünü demək bacarığına malik idi. O, təbiətən demokratik fikirli şəxsiyyət idi.

**Budaq Budaqov,**
*Akademik*

Akademik Həsən Əliyevin ömür yolu bütün varlığı ilə sevdiyi Azərbaycan təbiətinin göy qurşağına bənzəyir. Onun rəng çalarlarında yaşamağın, xalqa ləyaqətlə xidmət etməyin hikməti, möcüzəsi həkk olunub.

**Fərəməz Maqsudov,**
*Akademik*

Həsən müəllim özü boyda bir ürək idi, bu ürəkdə Azərbaycan adlı məmləkətə və bu məmləkətin insanlrına böyük məhəbbət vardı.

**Firdovsi Əliyev,**
*K/T. elmləri namizədi*

Qafqazı dünyanın zəngin təbiət muzeyinə bənzədirlər. Azərbaycan təbiəti isə bu muzeyin ən qiymətli incisidir.110 illik yubileyini qeyd edəcəyimiz Həsən Əliyevin də müqəddəs ruhu həmin muzeyin həmişəyaşar eksponatıdır.

Görkəmli akademik Həsən Əliyevin yubileyi ilə əlaqədar olaraq, "Ömrünü təbiət elmlərinə həsr etmiş görkəmli alim" adlı ***"dəyirmi masa"*** təşkil etmək olar. Dəyirmi masa zamanı tələbələr H.Əliyevin bir şəxsiyyət kimi həyatdakı və elm aləmindəki rolu, mövqeyindən bəhs edir.

*Kitabxanaçı*: Zəngin və rəngarəng biomüxtəlifliyi ilə seçilən ölkəmizin füsünkar təbiəti uca yaradanın xalqımıza bəxş etdiyi ən böyük ərməğandır. Nadir meşələri, flora və faunasının növ müxtəlifliyi ilə seçilən ölkəmizin məftunedici təbiəti uca Yaradanın xalqımıza bəxş etdiyi ən böyük ərməğandır. Elm tariximizə nəzər yetirsək görərik ki, respublikamızın bu gözəlliklərini, təbiətin biz insanlara verdiyi faydanı zamanında dərk edən, gələcək nəsillərə ətraf mühitə sevgini aşılayan elm adamları çox deyil. Onların sırasında Azərbaycan elminin cəfakeşlərindən olan, böyük təbiət alimi, akademik Həsən Əlirza oğlu Əliyevin xüsusi yeri var. O, Azərbaycan xalqının çox hörmətlə yanaşdığı, dərin rəğbət bəslədiyi elm xadimi, sadə, zəhmətsevər, yüksək və həssas duyuma malik bir ziyalı idi. O, taleyin sərt rüzigarları ilə üzləşsə də, fitri qabiliyyəti və təhsilə olan sonsuz marağı sayəsində əvvəlcə kənd təsərrüfatı texnikumunu, sonra isə ali məktəbi vaxtından əvvəl bitirmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, respublikasının əməkdar elm xadimi, dövlət mükafatı laueratı, kənd təsərrüfatı elmləri doktoru, professor, ABŞ-ın Ümumdünya Universitetinin fəxri elmlər doktoru Həsən Əliyev bu gün də yaddaşlarda ən xoş və səmimi hislərlə xatırlanır.

Həsən Əliyev respublikanı qarış-qarış gəzib dolaşar, onun gözəlliklərini lentə köçürər və bu lentləri Bakıdan başlamış dünyanın əksər ölkələrində keçirilən elmi məclislərdə söylədiyi məruzələrində nümayiş etdirərdi. Eyni zamanda, dünyanın başqa ölkələrində səfərdə olarkən lentə aldığı gözəl təbiət sujetlərini də əyani şəkildə ali məktəb tələbələrinə və orta məktəb şagirdləri qarşısında çıxış edərkən ğöstərərdi. Onun çıxışları həmişə maraqla qarşılanırdı. O, bununla insanlarda təbiətə məhəbbət hissi aşılayırdı. Xüsusilə bu işdə alimin elmi-kütləvi səpkidə yazıb 1982-ci ildə çap etdirdiyi “Həyəcan təbili” kitabının ötən əsrin 50-ci illərdən sonra respublikanın təbiətində baş verən ekoloji problemlərin ölkə içtimayətinin diqqətinə çatdırılması baxımından əhəmiyyəti misilsizdir. Qeyd etmək lazımdır ki, yüksək ixtisaslı elmi kadrların yetişməsinə də xüsusi qayğı və diqqət göstərən Həsən Əliyevin rəhbərliyi ilə alimlik dərəcəsi almış neçə-neçə elmlər doktoru, elmlər namizədi var və onlar təbiətin müxtəlif sahələrinin aktual elmi problemlərinin araşdırılması ilə bu gün də məşğuldurlar. Çox mənalı və şərəfli ömür yaşamış alim özündən sonra gələn nəsillərə zəngin elmi irs ərməğan qoyub getmişdir. 60 ildən çox davam edən elmi yaradıcılıq fəaliyyətində 800-ə qədər elmi məqalə, monoqrafiya, 140-a qədər müxtəlif təyinatlı xəritələrin, xeyli sayda elmi-kütləvi əsərlərin müəllifi olması onu göstərir ki, akademik ömrünün sonuna kimi çox gərgin və məhsuldar işləmişdir. Odur ki, Azərbaycan təbiətinin qorunmasından və təbiət elminin inkişafından söz düşəndə adı həmişə birincilər sırasında çəkilir. Böyük alim və ziyalı, təvazökar insan Həsən Əliyev təbiətşünaslıq sahəsində ömrünün sonuna qədər tədqiqat aparmış, çoxlu sayda əsərin və təbiət abidələrinin müəllifi olmuşdur. O, təbiəti öz həyatından artıq sevirdi. Torpqaşünaslar,

meşəçilər, melioratorlar, bioloqlar, coğrafiyaşünaslar, aqronomlar, ekoloqlar onun elmi əsərlərindən bəhrlənirlər. Akademik həyatını bütünlüklə təbiətə bəxş edən nadir insanlardan idi. Ona görə də təbiətşünas alimlər və mütəxəsislər Həsən müəllimi həmişə özlərinin məsləhətçisi bilirdilər.
*I iştirakçı:* Onu Azərbaycandan kənarda da yaxşı tanıyırdılar. Əsərləri rus, ingilis, fransız dillərində çap olunaraq ABŞ-da, Almaniyada, Rusiyada, Fransada, Yaponiyada və başqa ölkələrdə yayılmışdır. Akademikin biogeosenologiya, biocoğrafiya, torpaq eroziyası sahələrində apardığı elmi-tədqiqat işləri xarici alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Hələ 1960-cı ildən Brüsseldə "Azərbaycanın dağlıq rayonlarında torpaq eroziyasının inkişafı və bu prosesin qarşısının alınması" adlı monoqrafiyası çap olunmuş, elm adamları onu yüksək qiymətləndirmişlər. Akademik Coğrafiya insitutuna rəhbərlik etdiyi illərdə torpaq-ekoloji tədqiqatçılara və meşəçilik elminin inkişafına geniş yer verirdi. Azərbaycanda 40 min hektardan artıq meşə altından çıxmış torpaqlardan daha səmərəli istifadə etməyin yollarını müəyyənləşdirmişdir. Böyük alim ilk dəfə dağ yamaclarında az istifadəli torpaqlarda, quru fitomeliorasiya işlərinin həyata keçirilməsinin elmi təşkilini uzun illər araşdırmış və bu sahədə xeyli tövsiyələr vermiş, ömrünün sonuna qədər həmin tədqiqatları davam etdirmişdir. Həsən Əliyev 1949-1952-ci illərdə Azərbaycanda EA Botanika İnstitutuna rəhbərlik etdiyi zaman institutun meşəçilik labarotoriyası və həmin ətrafda Botanika, Mərdəkan qəsəbəsində isə dendrologiya bağlarının zənginləşdirilməsinə nail olmuşdur. Alim bütövlükdə dağlıq və düzən ərazilərin ekocoğrafi problemlərinin kifayət qədər öyrənilməsinə nail olmuşdur. Onun bu baxımdan "Böyük

Qafqazın şimal-şərq hissələrinin meşə və meşə-bozqır torpaqları" adlı monoqrafiyası bu gün də torpaqşünasların və meşəçi mütəxəssislərin geniş istifadə etdiyi mənbədir.

*II iştirakçı:* Həsən müəllim Azərbaycan EA Nəbatat institunun direktoru olan zaman onun rəhbərliyi altında "Azərbaycan florası" kitabının hazırlanması bu insanın dendrologiya elminə dərindən bələd olduğunu sübut edirdi. Xüsusilə ağac və kol cinslərinin dendroloji xüsusiyyətlərini müəyyənləşdirməklə alim, tarixi bitki örtüyünü elmi əsaslarla qiymətləndirmiş Azərbaycan Kiçik Qafqaz, Talış dağlıq zonası və Mərkəzi aran ərazilərində bitki örtüyünü açıqlamaqla isə onların ekocoğrafi və dendroloji xüsusiyyətlərinin təhlilini vermişdir. Azərbaycanda 1952-1957-ci illərdə akademik Həsən Əliyev Elmlər Akademiyasının akademik katibi vəzifəsində işləyən zaman meşə torpaqlarının öyrənilməsini ən vacib tədqiqat işi hesab edərək zəngin meşə torpaqşünaslığı labaratoriyası yaratmışdır. Həmin labaratoriyada Qafqazın torpaqlarının genetik-coğrafi cəhətləri öyrənilmişdir. 1959-cu il də Mərdəkan qəsəbəsindən Bərdə şəhərinə köçürülən Azərbaycan Elmi-Tədqiqat Meşə Təsərrüfatı və Aqromeşəmeliorasiya İnstitutunun müasir tələbələrə cavab verən laboratoriyalarının, həmin ərazidə münasib dendrologiya bağının yaradılması üçün 150 hektarlıq ərazinin müəyyənləşdirilməsinə nail olmuşdur və lazımli elmi məsləhətlər vermişdir. 1970-ci illərə qədər Abşeron yarmadasının, xüsusilə Bakı şəhərinin yaşıllaşdırılması, demək olar ki, tələblərə cavab vermirdi. Onun 10 ildən artıq yaşıllaşdırma işləri sahəsində apardığı elmi və təşkilati fəaliyyətinin bəhrəsi olaraq 1982-ci ildə məlum oldu ki, Bakı şəhərində adam başına düşən yaşıllıq norması 7-8 kvadratmetrdən 18-20 kvadratmetrə çatmışdır. Bu hal isə ekoloji

baxımdan adambaşına düşən yaşıllıq normasına uyğun idi. Həsən müəllim Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin mərkəzi şurasını təşkil etmiş və ona 20 il rəhbərlik etmişdir. O, yaradıcı alimləri, təbiətsevərləri həmin cəmiyyətin ətrafında toplayaraq geniş içtimaiyyətin səyini Azərbaycan təbiətinin mühafizəsi işinə cəlb etmişdir.

*III iştirakçı:* Alim "Azərbaycan təbiəti" jurnalını təsis etməklə bütün respublika içtimaiyyətinin diqqətini həmin sahəyə yönəltmiş, geniş maarifləndirmə işi aparmışdır. Akademik vətənimizdə ətraf mühitin mühafizəsi və təbiəti bərpa məsələləri üzrə elmi-praktiki əsaslar yaratmışdır və uzaqgörənliklə bu sahədə kadr hazırlığına böyük ehtiyac olduğunu göstərmişdir. Məhz bu ideya ilə əlaqədar 1979-cu ildə respublikamız üçün Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinin nəzdnində Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə" kafedrasının yaradılması təklifini vermiş və həmin kafedranın açılmasında öz səyini əsirgəməmişdir. Həsən müəllim hələ 1980-cı illərdən başlayaraq Azərbaycan Təbiəti Mühafizə Cəmiyyəti ilə "Bilik" Cəmiyyətinin birgə keçirdiyi elmi seminarlarda nəzəri-praktiki əhəmiyyət kəsb edən mühazirələrlə çıxış edirdi. O, deyirdi ki, "Dünya meşələrinin çox kiçik tərkib hissəsi olan Azərbaycan meşələri cins tərkibi ilə yüksək zənginliyə malikdir. Ümumi ərazimizin 12 faizə qədərini təşkil edən meşə fonunda dünyada nəsli kəsilməkdə olan 70-dən artıq ağac və kol cinsləri mövcuddur. Bu məqsədlə bizim təşəbbüsümüzlə, 1982-ci ildə Azərbaycan hökuməti belə əraziləri təbiət abidələri kimi qiymətləndirərək pasportlaşdırılmasını həyata keçirdi. Bu işləri təqdirəlayiq hesab etmək lazımdır.

*IV iştirakçı:* Həsən Əliyev hesab edirdi ki, Kür Boyu Eldar şamı əkilməsi təqdirəlayiqdir. Lakin onun yanğın təhlükəsi daha böyük olduğu üçün müxtəlif cinslərlə qarışıq əkilməsi daha məslətlidir. O, meşəçilərlə söhbət zamanı deyirdi ki, biz indi artıq yüksək elmi nailiyyətlərə və təcrübəyə malikik. Odur ki, elmi-tədqiqat institutlarının tövsiyələrinə əsaslanaraq təsərrüfat planlarını tərtib etməliyik. Azərbaycanın müxtəlif ərazilərində, xüsusilə Aran Qrabağda daha böyük massivə saqqız meşələri onun diqqət mərkəzində idi. O, 1970-ci illərdən başlayaraq 400 ildən də yuxarı yaşı olan saqqız, palıd, digər cinslərdən ibarət Soltanbud meşəsində stsionar təcrübə sahəsi yaratmışdı. Akademik mütəmadi olaraq həmin sahəni müşahidə edir, əsasən təbii bərpanın gedişatını izləyirdi. Həmin sahələrdə müşahidə aparmaqla müşahidələri qeydə alırdı. Saqqız ağaclarının suya daha az tələbkar, oduncağı qiymətli, meşə əmələgətirmə xüsusiyyəti yüksək olduğunu nəzərə alaraq onun əvəzsiz rolunu qiymətləndirir və dünyada nəsli kəsilməkdə olduğundan bu ağacı daha çox öyrənməyi təklif edirdi. Həsən müəllim Kiçik Qafqazın da ən qiymətli meşə sahələrinin ciddi qorunmasını və onun bərpasını arzulayırdı. O, çinarın, qırmızı palıdın və ayıfındığı kimi başcinslərin Kiçik Qafqazda böyük meşə əmələgətirmə əhəmiyyətindən danışır və həmişə qeyd edirdi ki, bu ərazilər ciddi mühafizə olunmaqla təbii bərpa üçün yüksək təsərrüfat fəaliyyəti tələb edir. Həsən Əliyevin elmi fəaliyyətlərinin mühüm hissələrindən biri də Böyük Qafqaza həsr olunmuşdur. Eləcə də Böyük Qafqazın cənub-şərq yamaclarını, Abşeron yarımadasını və Bakı ətrafı florasını dərindən öyrənirdi. Onun Abşeron yarımadasında, Dəvəçi, Siyəzən rayonları ərazisində apardığı elmi-praktiki işlərdən bu gün də qiymətli əsər kimi yararlanırıq. Qeyd etmək lazımdır ki,

Həsən müəllimin təbiəti mühafizə və təbiəti bərpa sahəsindəki elmi tədqiqatları və tövsiyələri bu gün də fəaliyyətimiz üçün önəmlidir.
*V iştirakçı:* Bütün bunlar vətənsevər və istedadlı alim, böyük ziyalı Həsən Əliyevin Azərbaycan elminin inkişafına verdiyi töhfələrin yalnız kiçik bir qismidir. Bu gün Azərbaycanın elmi-təqdiqat institutlarında və ali təhsil məktəblərində çalışan onlarla torpaqşünas alim Həsən Əliyev məktəbinin yetirməsidir. Həsən Əliyev gələcəyi duyur və gənc alimlərin istedad və bacarığını həmin istiqamətə yönəldirdi. O, bütün ömrünün hər dəqiqəsini, hər anını xalqına, vətəninə həsr etmiş, ən böyük arzusu Azərbaycan təbiətinin zəngin, torpaqlarını bərəkətli, insanların bu sərvətin əsl sahibi görmək olmuşdur. Akademik Həsən Əlirza oğlu Əliyev onu tanıyanlar tərəfindən daim xatırlanır və sevilir.
*Konfransın sonunda kitabxanaçı bu fikirlərlə konfransı yekunlaşdırır.*

Ziyalı şəxsiyyət Həsən Əliyevin həyatı və gördüyü təqdirəlayiq işləri oxuculara tanıtmaq və onları bu haqda bilgiləndirmək məqsədi ilə kitabxanada keçirilən tədbirlərdən biri də ***"Alimdir gözümdə ən əziz insan"*** adlı "oxucularla söhbət" adlanır. Kitabxanaçı bunun üçün ilk olaraq akademik haqqında dəyərli fikirlər söyləyir:

*Kitabxanaçı:* Hər bir xalqın bəşər mədəniyyəti tarixində yeri və mövqeyi onun mədəniyyəti, elmi və sənəti ilə müəyyən olunur. Yəni xalqı yaşadan, ona qol-qanad verən bu alimlərdir. Elmdə, sənətdə iz qoymamış xalq başqa xalqlara üstünlük eləyə bilməz. Azərbaycan xalqının böyük şairi Nizami Gəncəvi demişkən:

Elmlə, hünərlə-başqa cür heç kəs
Heç kəsə üstünlük eyliyə bilməz!
Rütbələr içində seçilir biri-
Hamıdan ucadır alimin yeri!

Azərbaycanın böyük alimi, mütəfəkkiri Cəmaləddin Əfqani deyir: "Dünya elm üstündə bərqərar olur. Elmi bəşəriyyətin əlindən alsan, daha dünyada insan qalmaz". Alim onu da qeyd edir ki, "Əsl alim nur mənbəyidir. Belə alim bütün dünyaya nur saçmalıdır. Əgər onun elm işığı bütün dünyaya yayıla bilmirsə, heç olmasa, öz ətrafını, öz şəhərini, yaxud kəndini və ya evini işıqlandırmalıdır". Belə alimlərdən biri də XX əsrin cəfakeş alimi Həsən Əlirza oğlu Əliyevdir. O, Azərbaycanın torpağını işıqlandıran, torpağın üstünü, xüsusən də meşələr və heyvanlar aləmini dərindən bilən, torpağımızı qarış-qarış gəzib dolanan alimlərdən idi. Bu böyük alimin təbiətə olan ülvi məhəbbətinə ana təbiət də borclu qalmamış, özünün sirlərlə dolu elm xəzinəsinin qapılarını onun üzünə taybatay açmış, bu çətin, ağır zəhmət yolunda ona bələdçi olmuşdu. Bunun nəticəsidir ki, Həsən Əliyevin elmin müxtəlif sahələrində saldığı cığırların xəritəsi çox geniş və əhatəli idi. Onun elmə, içtimai vəzifələrə, ölkəmizdə keçirilən elmi yığıncaqlara, kitablar, elmi məqalələr yazmağa, kadrlar hazırlamağa, ölkəmizi qarış-qarış gəzib onun təbiətinə, ekologiyasına nəzarət etməyə, radio və televiziyada çıxışlar etməyə, ailə qayğılarına sərf etdiyi vaxtı toplayıb illərə, aylara, saatlara böləndə adama elə gəlir ki, bir saniyə də yatıb dincəlməmişdir. Həsən Əliyev uşaqlıqdan təbiət vurğunu idi. Elə ilk addımından təbiəti öyrənməyə başladı və ixtisas seçməkdə çətinlik çəkmədi. Dəyərli oxucular, gəlin onun öz hissləri ilə, öz qəlbi ilə duyduğu fikirləri dinləyək. Bu zaman onun hər bir ağaca, kola, yaşıllığa, bütövlükdə təbiətə olan

vurğunluğunu, heyranlığını görəcəyik. Onun uğaqlıq illərində qeyd etdiyi xatirələrdə belə böyük bir sevgi gizləndiyinin bir daha şahidi olacağıq. Məncə, onun hər cümləsində gizlənən duyğular dünyanın ən hündür şəlaləsindən, ən böyük nehirlərindən çağlayan sular qədər coşğundur. Ümimilikdə, Həsən müəllimin incə qəlbindən süzülüb gələn böyük sözləri oxuduqca, təbiəti bir daha, bir daha sevirik, çünki təbiətə həm öz gözlərimizlə, həm də dahi alimin gözləri ilə boylanırıq.

**Həsən Əliyevin müdrik kəlamları:**

“Doğma ana övladı üçün fəryad etdiyi kimi, torpaq da fəryad edir. Övlad ana üçün, ana övlad üçün şirin olduğu kimi, torpaq da bütün insanlar üçün şirindir. Canlı təbiətə göz açan insanlar həmişə “ana torpaq”, “ana vətən” deyə ondan bir anlıq ayrılmaq istəmirlər. Ana döşündən süd verib körpəsini ərsəyə gətirdiyi kimi, ana torpaq da bütün insan nəslinə, onların xidmətində olan bütün canlılara “süd” verib böyüdür, yaşadır, tükənməz qidalarını onlardan əsirgəmir...”

“Uşaq var oynamağa başlarkən qışqırır ki, “Mən kiminləyəm?!” uşaq da var, məğrur dayanıb “Kim mənimlədir?!”-deyə soruşur. Belə uşaqlar böyüyəndən sonra birinci sərkərdə, rəhbər, lider, olan şəxsə çevrilir”.

“Yaşıllıq əhatəsində insanı işıqlı fikirlər öz ağuşuna alır, xoş əhval-ruhiyyə, qurub-yaratmaq eşqi güclənir. Məlum həqiqətdir ki, meşəni-yer kürəsinin bu yaşıl kəmərini bircə an təsəvvür etməsək, deməк, bəşər də yoxdur. Yaşıllığa ölçüsüz-biçimsiz hücum insana qarşı yönəlmiş ən ağır müharibədir. İnsan ağlı, insan zəhməti  bu “müharibəni” dəf etməyə qadirdir”.

“Mənim uşaqlıqda ilk dəfə zehnimə yazılanlardan biri təbiətin füsünkar gözəlliyi olan meşələrdir. Məndə təbiətin məhəbbəti lap uşaq ikən Çomərd babam oyatmışdır. Payızın əvvəlləri idi. Babamla yer şumlayırdıq. Babam kotanın dəstəyindən tutmuş, mən isə öküzləri sürmək üçün boyunduruğun üstündə oturmuşdum. Necə oldusa, sahənin başına çatanda öküzləri döndərməyə bir az gecikdim. Odur ki, kotanı şumdan çıxarıb sahənin kənarında bitən bir neçə kolu dibindən çıxarıb, yanı üstə yıxdı. Babam mənə bərk acıqlandı. Qanım qaraldı, fikirli-fikirli düşündüm, axı burada nə böyük qəbahət olubki, mənim xətrimi dünyalar qədər istəyən babam bu qədər əsəbiləşdi və mənə heç vaxt demədiyi acı sözlər dedi. Mənim danışmadığımı və fikirli olduğumdan öküzləri sürə bilmədiyimi görən babam həmişəki mülayim və mehriban səslə dedi: “A bala, sahənin başına çatanda öküzləri saxla, bir az dincimizi alaq, sonra yenə işləyərik”. Mən öküzləri sahənin başında saxlayıb, yerə düşdüm. Babam da əlini kotanın dəstəyindən çəkib, qamətini düzəldərək dedi: “Vedrəni götür, arxamca gəl!”, özü də beli çiyninə qoyub, sahənin baş tərəfini divar kimi əhatə etmiş kolluğa tərəf getdi. O, kolların hamısını öz yerinə basdırdı və hər kolun dibinə bir vedrə su tökməyi mənə tapşırdı. Kolları əkib qurtardıq, kotanı saxladığımız yerə qayıdarkən babam çox kövrək, mülayim səslə dedi: “Bitkilər də insan kimi canlıdır, onların insan həyatındakı, ümumiyyətlə, təbiətdəki rolu əvəzsizdir”. Bütünlüklə təbiət haqqında da mənə danışırdı. O vaxtlardan məndə təbiətə oyanan məhəbbət illər ötdükcə mənimlə birgə böyüdü və indiki səviyyəyə gəlib çatdı. İndi təbiəti dərk etdikcə, təbiət elminə müəyyən qədər bələd olduqca, hərdən mənə elə gəlir ki, məni anam yox, elə təbiət özü dünyaya gətirib”.

“Bitkilər də insan kimi canlıdır, onların insan həyatındakı, ümumiyyətlə, təbiətdəki rolu əvəzsizdir”. Bütünlüklə təbiət haqqında bilgiləri babam mənə danışdı. O vaxtdan məndə təbiətə oyanan kiçik məhəbbət illər ötdükcə mənimlə birgə böyüdü və indiki səviyyəyə gəlib çatdı.”

“Kənddəki evimiz təpənin ətəyində idi. Təpənin quzey tərəfi sıldırım olsa da, onu kol-kos basmış, qayaların üstündə ot bitmişdir. Ayaq tutmayan, sivri, küləyin təsirindən şiş ucları hamarlanmış, qayalarda belə meşə ağacları və kol bitkiləri işığa tərəf boy atırdı.

“Mən ədəbiyyatçı və rəssam olmağı arzulayarkən taleyim məni başqa sahəyə-təbiətə, torpağa bağladı. Əlimə qələm alarkən torpağın tədqiqindən başladım. Torpağın dərdi çoxdur. Onu görmək, düşünmək və hiss etmək lazımdır.”

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Respublikanın Əməkdar elm xadimi, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, kənd təsərrüfatı elmləri doktoru, professor Həsən Əlirza oğlu Əliyev çox böyük və bir o qədər də yaradıcı həyat yolu keçmişdir. Həsən Əliyevin 110-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ***“Çay kimi çağlayan ömür”*** adlı kitab müzakirəsidir. Bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə akademik H.Əliyevin gördüyü işlər və alimin kitabları ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər akademik Həsən Əliyevin gördüyü işlərlə yaxından tanış olurlar. Daha sonra kitabxanaçı sözü gedən tədbir üçün müəyyən olunmuş tarixdə oxucuları kitabxanaya dəvət edir.

*Kitabxanaçı iştirakçıları və qonaqları salamladıqdan sonra akademik H.Əliyev haqqında dəyərli məlumatlarla onları bilgiləndirir.*

Akademik Həsən Əliyev həddən artıq işgüzar alim idi. O, vaxtını boş keçirməyi sevməzdi. Həsən müəllim ya masa arxasında yazar, ya institutda işləyər, yaxud da məqsəyönlü səyahətə çıxardı. Təbiət onun canı və varlığı idi. Təbiətsiz onun bir an rahatlığı yox idi. O, hər zaman getdiyi, gördüyü, duyduğu yerlərdən yazar, çöldən topladığı materiallardan şəxsi görüş və mühazirələr zamanı istifadə edərdi. Akademik H.Əliyev ömrünün yarım əsrdən çoxunu respublikada çoğrafiya, torpaqşünaslıq elmlərinin inkişafına, ətraf mühitin mühafizəsi və ekologiya məsələlərinə həsr etmişdir. Onun monoqrafik əsərləri elmi içtimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Həsən müəllimin elmi məruzəçiləri dünyanın bir çox ölkələrində keçirilmiş mötəbər yığıncaqlarda dinlənilmişdir. H.Əliyev beş qitənin 12 dövlətində keçirilmiş simpoziumlarda, konfranslarda iştirak etmişdir. Həsən müəllimin 1940-cı ildə çapdan çıxmış ilk kitabına-"Pirssat çayının aşağı axını torpaqlarının tədqiqatı"na Respublika Akademiyasının mükafatı verilmişdir. Onun əsərləri elmimizin qızıl fonduna layiqli töfhədir.

*I iştirakçı:* Kitabda XX əsr Azərbaycan elminin və içtimai-siyasi fikrinin inkişafında böyük xidmətləri olan akademik Həsən Əliyevin həyat yolu, çoxşaxəli elmi yaradıcılığı şəhr edilir. Azərbaycanın nadir təbiətinin qorunması sahəsində Həsən Əliyevin böyük vətənpərvərlik hissi aşılanmış elmi-təşkilati fəaliyyəti konkret faktlar, müəllifin şahidi və iştirakçısı olduğu hadisələr, tədbirlər konteksində işıqlandırılır. Həyatı təcrübə göstərir ki, Azərbaycan elmi XX əsrdə öz inkişaf səviyyəsinə

yüksəldi. İyirminci əsrin 90-cı illəri Azərbaycan elminin zirvəsidir. Azərbaycanda bir-birinin ardınca açılan orta məktəblər, texniki peşə məktəbləri ali-orta və xüsusilə ali məktəblər sınanmış tədris üsulu ilə genişprofilli kadrlar hazırlayırdı. Bu kadrların böyük əksəriyyəti (xüsusilə 1920-1940-cı illərdə) surətlənmə yolu ilə orta məktəbi bitirib, ali təhsil alaraq istehsalata gedirdi. Azərbaycanda maarifin inkişafının coşqun axınına qoşulan və Azərbaycan elminin inkişafı yolunun ilkin çığırı ilə getməyə başlayanlardan biri də Həsən Əlirza oğlu Əliyev oldu. Həsən Əliyev elmdə öz məqsədyönlü və dönməz əməyi ilə ilkin nailiyyətlər qazanmış və qısa müddətdə respublika elminin mühüm sahələrində rəhbərlik etməyə başlamışdır. Deməli, Azərbaycan elmini Həsən Əliyev həm şəxsən özü, yetirmələri, yaratdığı məktəbin üzvləri inkişaf etdirmiş, həm də onun rəhbərliyi sayəsində respublika səviyyəsində elmin təşkili və inkişafı öz yoluna düşmüşdür. Akademik Həsən Əliyevin elmindən daim fayda gəlmişdir. Çünki onun elmindən torpaq ətri gəlir, torpaqda bitən bitkiyə, onun üzərində gəzən canlı aləmə, ondan axan suya, torpaqla təmasda olan havaya havadarlıq, arxa olmaq sədası gəlir. Təbiət ona havadar olanı öz yaddaşına yazmaqla onu uzunömürlü edir. Təbiətə ümidli arxa olmaq vətənə arxa olmaq deməkdir. Ətraf mühiti qoruyan, eyni zamanda da bəşəriyyətin həyat mənbəyi olan bərəkətli torpağı, sağlam havanı, saf suyu, əlvan növlü flora və faunanı-biosferi qoruyur. Təbiətin yaratdığı akademik Həsən Əliyevdə deyilən bütün keyfiyyətlər öz əksini tapmışdı. H.Əliyev həddən artıq çalışqan və istedadlı bir alim idi. O, fiziki və əqli imkanı daxilində elmə nə verə bilərdisə, onun maksimum dərəcədə verirdi. Həsən Əliyev elmdə nəyə nail olmuşdusa, onların hamısını kağıza köçürdü, çap etdirdi. Bütün bunlar

Həsən müəllim tərəfindən həm elmi, həm elmi-kütləvi, həm də şifahi-mühazirə yolu ilə həyata keçirildi.

*II iştirakçı:* Akademik Həsən Əliyev öz əsərləri ilə torpaqşünaslıq elmini zənginləşdirmişdir. Çöl şəraitində apardığı çoxillik elmi tədqiqatların nəticələri coğrafiya elminin, xüsusən onun torpaqşünaslıq sahəsinin inkişafında mühüm rol oynamışdır. Onun elmi nəticələri və tövsiyələri kənd təsərrüfatının inkişafına təkan vermişdir. Öz yüksək işgüzarlığı, tükənməz enerjisi, məqsədli fəaliyyəti sayəsində Həsən müəllim daha çox elmi əsərlər yaza bilərdi. Lakin alim elmi - tədqiqat fəaliyyəti ilə yanaşı, elmi içtimai, təşkilatı işlərə, elmin nailiyyətlərinin istehsalata tədbiqinə çox vaxt və enerji sərf etmişdir. Burada alimin çoxşaxəli elmi əsərlərini müfəssəl təhsil etmək imkanı olmadığından, biz əsasən Həsən Əliyevin torpaqlara və ətraf mühitin mühafizəsinə həsr edilmiş monoqrafik əsərlərdən bəhs edilir.

*III iştirakçı:* Akademik Həsən Əliyev Azərbaycan ərazisi torpaqlarının hərtərəfli tədqiqi nəticəsində yazılmış "Azərbaycan torpaqları" (Bakı, 1953) kitabının həm müəlliflərindən, həm də redaktorlarından biri idi. Kitabın birinci bölməsi-"Böyük Qafqazın torpaqları" Həsən Əliyev tərəfindən yazılmışdır. Bu bölmədə dağ-çəmən, dağ-meşə, dağ-çöl, ovalıq-meşə və çəmən-bataqlıq, torpaqların torpaqəmələgətirici şəraiti, torpaqların 12 yarımtipli və 31 növü verilmişdir. Bu monoqrafiya orijinal üslubuna, faktiki materialların zənginliyinə görə respublikanın torpaqşünaslıq elmində əvəzedilməz vəsait kimi böyük əhəmiyyətə malikdir. 1964-cü ildə alimin "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-bozqır torpaqları (Azərbaycan ərazisi)" kitabı çap edilmişdir. Əsərdə dağ-çəmən,

dağ-çəmən-çöl, meşə-çöl, çöl, ovalıq-çöl-meşə, yarımsəhra və allüvial torpaq tipləri daxilində ayrılmış 36 torpaq növündən, torpaqəmələgətirici amillərdən, torpağın genetik xüsusiyyətlərindən və onların kənd təsərrüfatının inkişafındakı rolundan bəhs edilir. 1966-cı ildə Həsən Əliyevin "Qəhvəyi meşə torpaqları" adlı monoqrafiyası çap edilmişdir. Azərbaycanın meşə, quru subtropiklərinin qəhvəyi -meşə, meşədənsonrakı torpaqlarına həsr edilmiş bu əsərdə mövcud olan xüsusiyyətləri verilmişdir. Bu, ölkəmizdə qəhvəyi-meşə torpaqlarına həsr edilmiş ilk dəyərli əsərdir. Əsər İsraildə ingilis dilinə tərcümə edilmiş və çap olunmuşdur.

*IV iştirakçı:* Həsən Əlirza oğlu Əliyevin 1957-ci ildə Azərbaycan EA Coğrafiya İnstitunda təşkil etdiyi meşə torpaqlarının coğrafiyası şöbəsinin əməkdaşlarının çoxillik tədqiqatları nəticəsində ərazisini meşə və meşələrin ətrafındakı meşədən sonrakı torpaqların bir sıra torpaq xəritələri tərtib edilmişdir. Həsən Əliyev respublikamızın müxtəlif təbii rayonlarının 15-dən artıq torpaq xəritəsinin müəllifidir. Bitki örtüyü hər hansı bir landşafın ilkin aynasıdır. Onun tədqiqi, eləcə də meşə örtüyünün öyrənilməsi böyük elmi-nəzəri və əməli əhəmiyyət kəsb edir. Akademikin bir sıra məqaləsi qiymətli ağac növlərinə həsr edilmişdir. O, xalq təsərrüfatın elmi problemlərinin həlli məsələləri ilə daim maraqlanmış, 1949-cu ildən başlayaraq, respublikanın yem bitkilərinin əkininə xüsusi fikir vermişdi. Onun "Azərbaycanın bəzi yem bitkilərinin payızda əkilməsi" (1961) kitabçası və bir sıra məqalələri maldarlığın möhkəm yem bazasının təşkilində bir sıra tədbirlərin elmi əsaslarına həsr edilmişdir. Həsən müəllim 1946-cı ildən başlayaraq bəzi kimyəvi maddələrin, xüsusilə manqan

tərkibli gübrələrin kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına təsirini öyrətməyə başlayır. Respublikada üzümçülərin bugünkü uğurlarında torpaqşünaslarımızın çox böyük əməyi vardır. Ümumiyyuətlə, Həsən Əliyev Azərbaycanda üzümçülüyün inkişafına daim fikir vermişdir.

*V iştirakçı:* Akademik Həsən Əliyevin "Həyəcan təbili" əsərindən hikmətli sözlər:
Təbiəti düşünərkən:-"Təbiətdə heç bir ünsürün "təklik eqoizmi" yoxdur. Bir ünsür digərinə söykənəcəkdir və ya digərindən söykənəcək istəyir".
-"Su yaşıllığı saxlayır, yaşıllıq suyu. Torpaq anadırsa, su övladdır, meşə bu övladsız dodağı çat-çat olub yanacaq, dirigözlü "ölüyə" dönəcək. Bunlar hamısı aydındır. Bircə qaranlıq qalan odur ki, biz bəzən gündəlik fəaliyyətimizdə niyə bunları yaddan çıxarırıq?"
Azərbaycan təbiəti: -"Azərbaycanda yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir".
-Mən dünyanın bir çox ölkələrini gəzdim, lakin Qafqazın təbiəti qədər gözəl, romantik, dilbər guşəyə rast gəlməmişəm. Qafqazda da təbiət ən gözəl nemətlərini bizim respublikaya bəxş etmişdir."
Torpaq sərvəti:-"Torpaq Vətən deməkdir.Tarix boyu torpaq üstündə ölüm-dirim döyüşləri olmuş, torpaq milyonları udmuşdur."
-"Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpağındır."
-"Torpaq bizim "çörək ağacımız",... yaşayışımızın ibtidasıdır. Məhz buna görə də torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir".

-“Hər şey torpağın üstündə bitir. Bu mənada insan üçün torpaqdan kənarda təbiət anlayışı yoxdur”.
-“Ağaclara su verilsə, lazımi qulluq göstərilsə, torpağı ağac bitkilərinin elə özləri əmələ gətirər.
Meşə sərvəti:- “Meşə sərvətimiz, meşə varlığımız, meşə-məişətimizin bir hissəsidir”.
-Məlum həqiqətdir ki, meşəni-Yer kürəsinin bu yaşıl kəmərini bircə an təsəvvür etməsək, demək, bəşər də yoxdur.”
- Meşə böyük sərvətdir, əvəzsiz xəzinədir.
Quşlar haqqında:-“Quş səsi olmasaydı, təbiət lal-kar olardı. Quş aləmi təbiətin ən canlı poetik hissəsidir. Quşsuz təbiət mizrabsız tara bənzər”.

*VI iştirakçı:* Müəllif yazıb ərsəyə gətirdiyi kitablarla respublikamız daxilində sanki ətraf mühiti vərəqləyir, onun təbii mənzərəsini göz önünə gətirməklə, əlvan rənglərdən danışmaqla bərabər, bu əlvanlığın pozulmaq qorxusundan da həyacanla söhbət açır. Bu düzənlikləri münbit torpağın əmələ gəlməsi üçün bəzən min ildən artıq vaxt keçir. Məlumdur ki, insan heç vaxt onu əhatə edən mühitin düşməni olmamışdır. Lakin insan təbiətdən istədiyini qopararkən, bəzən onun yarasını bağlamağı yaddan çıxarır. Təzəsini əkməmiş köhnəsinə sahib çıxır. Təbiət isə ona qarşı yönələn bu güclü hücumdan sonra özünübərpanın öhdəsindən gələ bilmir. Çoxdan bəri Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin sədri kimi içtimai vəzifə daşıyan alim respublikamızı, demək olar ki, qarış-qarış gəzib, hər gədikdə dayanıb, təbiəti müşahidə eləmiş, hər cığırla addımlayıb flora və faunamızın vəziyyətini öyrənmiş, həmişə də qeydlər aparıb mətbuat səhifələrində oxuculara öz sözünü demişdir. Həsən Əliyevin həyəcanla danışmağında, elmi dəlilləri “ələyib ortaya

tökməsində", son nəticədə insanı öz beşiyini qorumağa səsləməsində ali məqsədi budur.

Kitabxanada akademik Həsən Əliyevdən bəhs edən xatirə gecəsi də təşkil etmək olar. Alimin xatirəsinə həsr olunmuş "Dedilər ki, təbil çal, qoy hamı eşitsin" adlı gecəyə görkəmli elm adamları, alim və akademiklər, ekoloqlar, torpaqtşünaslar, bioloq və s. ixtisas sahibləri ilə yanaşı oxucular və ali məktəb tələbələri də dəvət olunurlar. Qonaqlar akademikin şəkilləri, müxtəlif adda əsər başlıqları və hikmətli sözlərinin çərçivərələrlə bəzədilmiş zalda əyləşirlər. Gecənin qonaqlarına öncə Həsən Əliyev haqqında hazırlanmış slayt təqdim edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnəyə yaxınlaşırlar.

*I aparıcı:* - Salam, dəyərli qonaqlar, bu təbiət ətirli, torpaq hərarətli gecədə xoş gördük sizləri. Gəlin bu gün təbiət anamızı sırf görkəmli şəxsiyyət dahi insan Həsən Əliyevin qəlbi ilə sevək və bu gün akademikin gözüylə ona bir daha, bir daha məftun olaq. Axı varlığının ilk günündən təbiət insanın evi, yaşamaq üçün qida mənbəyi olmuşdur. İllər keçdikcə, insanlar təbiətin isti, soyuğunu dərk etdikləri kimi, onun flora və faunasından istifadənin səmərəli yollarını da müəyyən etmiş, özlərinə lazım olan nemətləri qorumuş nəsildən-nəslə ötürmüşlər.

*II aparıcı:* İnsanlarda təbiətə qarşı mədəni rəftar, sağlamlığın təminatçısı baxımından həmişə qiymətli olmuş və bu gün də öz dəyərini qoruyub saxlayır. Belə şəxsiyyətlərdən biri uzun illər Azərbaycan təbiətinin böyük təşəbbüskeşi, Azərbaycan xalqının dünya şöhrətli alimi, akademik Həsən Əliyev olmuşdur. Həsən Əliyev üçün Azərbaycan təbiəti müqəddəs varlıq idi. Necə deyərlər, o, ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alaraq ilin

bütün fəsillərində özünəməxsus gözəllikləri olan vətənimizi gəzir, təbiətin dərdini öyrənir, qayğısına qalırdı. Talış dağlarından bağlamış Böyük Qafqazın ətəklərinədək, Kür qırağından başlamış Göy-gölə kimi meşələrdə ağacları, körpə fidanları tanıyır, palıdların, çinarlarların yaşını bilirdi.

*I aparıcı:* Həsən Əliyev haqqında müasirlərinin xatirələrindən, alimin özünün təbiət haqqında yazmış olduğu saysız-hesabsız, olduqca dəyərli əsərlərindən məlum olur ki, gecələr budaqlarında quşları qonaq saxlayan, yayın istisində kölgəsində insanlara sərinlik verən çinarları çox sevərmiş. Təsadüfi deyil ki, xalqımız qədim zamanlardan bu əzəmətli, uzunömürlü florasına məğrurluq rəmzi kimi baxmışdır. Yurdumuzun bəzəyi olan çinarlar nəinki öz şairlərimizin, bəstəkarlarımızın, həm də xaricdən gələn qonaqların və səyyahların da diqqətini cəlb etmişdir.

*II aparıcı:* Azərbaycan torpağını addım-addım, qarış-qarış gəzən, hər qayaya, hər bitkinin yarpağına nəzər salan, hər torpağın profilinə diqqət yetirən, flora və faunanın özünəməxsus dilini bilən vətənpərvər alim Azərbaycan florasının simvolu olan Eldar şamının geniş sahələrində introduksiyasından, Şərq palıdının pasportlaşdırılmasından, nadir, relikt endem ağacların qorunub saxlanılması və artırılmasından, hər əkilən bitkinin pöhrələnməsindən və başqa faydalı işlərdən nə qədər böyük fərəh hissi duyurdusa, ayrı-ayrı rayonlarda təbii meşəliklərin qırılaraq əkin sahələrinə çevrilməsindən, təbiətə qarşı nankor münasibətdən də eyni dərəcədə narahatlıq hissi keçirir və bunlara qarşı barışmaz mövqedə duraraq daim mübarizə aparırdı.

*I aparıcı*: Həsən Əlirza oğlu Əliyev Talış dağlarını, ona yaxın bölgələrin təbii sərvətlərini insanların səxavətini dəyərləndirməklə bərabər, gələcəkdə bu diyarın sağlamlıq ocaqlarına çevrilməsini lazım bilirdi. Buna görə də Lənkəran, Lerik, Masallı Yardımlı rayonlarının ərazisində Həsən Əliyevin görmək istədiyi sağlıq ocaqları, turist düşərgələri, istirahət və əyləncə mərkəzlərinin sayı ildən-ilə artmaqdadır. Mənalı ömrünü Azərbaycan təbiətinin qorunub saxlanılması, ölkəmizdə ekoloji durumun yaxşılaşdırılmasına həsr etmiş akademik Həsən Əliyev məktəbi, onun məqalələri, çıxışları, kitabları həmişə müasirdir. Onun əsərlərində biz təbiətimizə həmişə övlad qayğısı ilə döyünən ürəyinin səsini eşidirik. Bu səs təbiətimizi qorumaq üçün çalınan həyəcan təbilidir. Müasir şəraitdə ölkəmizdə təbiətin qorunması, meşəliklərin salınması sahəsində dövlət səviyyəsində məqsədyönlü işlər aparılır.
*Bu arada məktəblilər Musa Urudun akademik H.Əliyevin əziz xatirəsinə həsr etdiyi "Umud evi" adlı şeiri deməyə başlayırlar.*

Eləcə açıqdır bu köhnə qapı,
Eləcə bərəkət gülür bu evdən.
Bir az dağ havası vurur adamı,
Bir az torpaq ətri gəlir bu evdən.

Kimi son ümid tək baxıb bu evə
Kimi çörək yeri bilib gəlibdi.
Kiminin üzünə gülüb taleyi,
Kimi taleyinə gülüb gəlibdi.

İşığa gələn də, paya gələn də
Keçib bu qapıdan, girib bu evə.
Ümidi, sevinci götürüb gedib,

Ağrını, nisgili verib bu evə.

İşıq süzgəcindən, haqq mizanından
Keçən tək adamlar keçib bu evdən.
Kiminin əlini çörəkli edib,
Kimi də əlini çəkib bu evdən.

Üzüdönüyü də, mərdi də görüb,
Bu ev umu tutmaz, küsü saxlamaz.
Ömrü yeddi simdə, pərdədə görüb,
Bir də bu dünyaya umud bağlamaz.

Hər perikən quşun qalıb dərdinə,
Hər solan çiçəklə solubdu bu ev.
Ağacın yerinə, daşın yerinə
Həyəcan təbili çalıbdı bu ev.

Günəşlə bəsləşən, yerlə səsləşən
Bir adam ömrüdü bu evin ömrü.
Sənətkar ömrüdü, alim ömrüdü,
Yaradan ömrüdü bu evin ömrü.

*I aparıcı:* Akademik Həsən Əliyevin respublikada xüsusi çəkisi və hörməti var idi. Onu ürəkdən sevənlər, onun gördüyü işlərdən fərəhlənənlər, onun qayğıkeşliyini, ədalətsizliyə qarşı söz deməsini bəyənənlər az deyildir. Onu xalqa sevdirən onun talantlı torpaqşünas olması, Azərbaycan təbiətində baş verməkdə olan neqativ cəhətlərə qarşı çıxaraq cəsarətlə həyəcan təbili çalması, respublikada kadr hazırlığına qayğı göstərən, mərd, dəyanətli bir insan olması idi. Alim əməyi itmir.

Azərbaycan elminin qızıl fonduna daxil olmuşların biri də məhsuldar vətənpərvər alim, akademik Həsən Əliyevdir. Əsl alim nur mənbəyidir. Belə alim bütün dünyaya nur saçmalıdır. Əgər onun elm işığı bütün dünyaya yayıla bilmirsə, heç olmasa öz ətrafını, öz şəhərini, yaxud kəndini və ya evini işıqlandırmalıdır. Bu idi akademik Həsən Əlirza oğlu Əliyev.Torpağı nurla dolsun!

*Həsən Əliyevdən bəhs edən xatirə gecəsinin sonunda məktəbli oxucular sevilən şairimiz Musa Yaqubun Həsən əliyevə həsr etdiyi "Yaşıl heykəl" şeirini səsləndirirlər.*

Burda xatirəndir könlündə bitən,
Mənə yarpaq- yarpaq uzanıb əlin.
O qartallı qaya sənin abidən,
Müqəddəs ardıclar yaşıl heykəlin.

Zümrüd göllərin var dağlar qoynunda
İzini saxlayar Şöykəm yaylağı.
Arçanlar minillik ömrün donunda,
Durub damar-damar qucub torpağı.

O gümüş çay kimi ömrün axında,
Ey Vələs, ey Palıd, ey Çinar kişi.
Vətən torpağının hər bucağında
Eşqi, məhəbbəti, izi var kişi.

Qarabağ kitabı, Qafqaz kitabı,
Gözünlə oxunub sətirbəsətir.
Meşələr saxlayır bu haqq-hesabı,
Pöhrələr sanıram ruhundan bitir.

O Qafqaz dağları, Kür qıraqları,
Seyrangahın olub, Həsən müəllim.
Hər kəsilən ağac könlün qubarı...
Duman ahın olub, Həsən müəllim.

Sənin də dərdini bilmədik elə.
Yandın təbiətə qəlbində işıq.
Həyəcan təbili çalırsan hələ,
Hələ biz bu səsə ayılmamışıq.

Həyəcan təbili, dözdün birtəhər,
Düşündün bu təbil bizi saxlayar.
Hələ çox mişarlı, baltalı əl var,
Baxma meşəmizə, ruhun ağlayar.

Ustad könlü ipək, ruhu bənövşəm.
Demə ki, tək elə söz acıyam mən.
Mən bir çinar əkib, gül bitirmişəm,
Bununla ruhuna duaçıyam mən.

***Ədəbiyyat siyahısı:***
***Əsərləri***

**Əliyev H.** Həyəcan təbili : Təbiət haqqında monoqrafiya. - Bakı : Elm, 2007. - 204 s.

***Haqqında***

**Budaqov B.** Çay kimi çağlayan ömür. - Bakı : Elm, 2007. - 200 s.

**Elin oğlu** : Akademik Həsən Əliyev haqqında xatirələr. - Bakı : Elm, 2007. - 184 s. : rəngli foto.

***Dövri mətbuatda***

Ağazadə A. Ədalətə tapınan şərəfli ömür yolu // Respublika. - 2009. - 13 sentyabr. - N 204. - S. 3.

Budaqov B. Təbiət elminə həsr edilmiş ömür : Həsən Əliyev haqqında // Azərbaycan. - 2007. - 4 sentyabr. - S.6.

Cabbarov V. Dünya səviyyəsində tanınmış insan : Həsən Əliyev - 100// Təhsil problemləri. - 2007. - 21-30 sentyabr. - S.3.

Elcanlı S. Şabrandan Şabrana... // Azərbaycan. - 2011. - № 2. - S. 146-154. - 1. Daim oxunan kitab və ya deməyə bilmədiklərim ; 2. Bir xatirənin yaşıl işığı ; 3. Sirli təbəssüm çiçəkləri və ya Şəhərlərin şahı Şabran. – Məqalədə Həsən Əliyev haqqında da məlumat verilir.

Fətəliyev K. Unudulmaz elm xadimi : Həsən Əliyev - 105// Respublika. - 2012. - 15 dekabr. - № 280. - S. 13.

Göyçaylı Ş. Böyük təbiətşünas - alim : Həsən Əliyev haqqında // Azərbaycan. - 2007. - 29 avqust. - S.6.

Göyçaylı Ş. Təbiətşünaslığa və ətraf mühitin mühafizəsinə həsr edilmiş ömür : Həsən Əliyev haqqında // Azərbaycan. - 2011. - 15 dekabr. - № 277. - S. 6.

Hacıyev E.      Azərbaycan təbiətinin vurğunu : Həsən Əliyev - 100 // Xalq qəzeti. - 2008. - 9 yanvar. - S. 5.

Hacıyev V.  " Həyəcan təbili" nin sədaları : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 5 oktyabr. - S.6.

Haqverdiyev H. Akademik Həsən Əliyevin milli vətənpərvərlik qayğısı unudulmur // Respublika. - 2016, - 31 avqust. - № 190. - S. 3.

Haqverdiyev H. Dünya şöhrətli alim : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 26 oktyabr. - S. 6.

Həsənov İ.      " O təbiəti öz varlığı qədər sevirdi : Mingəçevirdə akademik  Həsən Əliyevin 100 illik yubileyi // Xalq qəzeti. - 2007. - 25 aprel. - S.5.

Hüseynov B. Təbiətə və elmə bağlı ömür : Həsən Əliyev  // Xalq qəzeti. - 2015. - 15 dekabr. - № 276. - S. 6.

Hüseynov E. Ekoloji anomaliyalar qlobal fəlakətə çevrilməkdədir // Xalq qəzeti. - 2007. - 22 may. - S.6.

Xəlilzadə F. Dan yeri ağaranda : Həsən Əliyev - 105 // Azərbaycan. -  2012. - 16 dekabr. - № 281. - S. 7.

Xəlilzadə F. Təbiətin özü kimi əbədi : torpaqşünas alim, kənd təsərrüfatı elmləri doktoru Həsən Əliyev haqqında // Kaspi. - 2014. - 16 dekabr. - № 206. - S. 10.

Xəlilzadə F. Vətənpərvər alim xeyrxah  əməlləri ilə yaşayır : akademik Həsən Əliyev // Azərbaycan. - 2009. - 15 dekabr. - № 278. - S. 5.

Xəlilzadə F. Zirvələrə ucalan alim : Həsən Əliyev - 100 //

Azərbaycan. - 2007. - 17 fevral. - S.6.

Xəlilzadə F. Zümrüd hüsnün vurğunu : torpaqşünas, kənd təsərrüfatı elmləri doktoru Həsən Əliyev haqqında // Azərbaycan. - 2010. - 15 dekabr. - № 275. - S. 6.
İmanov F. Təbiəti mühafizənin zirvəsində əbədiləşmiş alim : akademik Həsən Əliyev haqqında // Azərbaycan. - 2013. - 15 dekabr. - № 277. - S. 5.

Qafar T. Təbiətin loğmanı : Həsən Əliyev - 100 // İki Sahil. - 2007. - 30 oktyabr. - S. 6.

Qocayeva A. Təbiət vurğunu : Həsən Əliyev haqqında // Azərbaycan. - 2008. - 14 dekabr. - S. 4.

Quliyev R. Kənd Təsərrüfatı Akademiyasına şərəf və şöhrət gətirən ilk məzunlardan biri : Həsən Əliyev- 90 // Azərbaycan. - 2007. - 16 dekabr. - S. 5.

Mehdixanlı T. "Həyəcan təbili" hələ də eşidilir : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 27 mart. - S.4.

Məmmədov Ə. Ana təbiətimizə övlad qayğısı : Həsən Əliyev - 100 // Mədəni- maarif. - 2007. - № 6. - S.19-23. ; Ədəbiyyat qəzeti. - 2007. - 18 may. - S.1,5.

Məmmədov Q. Azərbaycan təbiət elminin patriarxı : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 5 iyun. - S.6.

Məmmədov Q. Azərbaycan torpaqşünaslıq elminin inkişafında akademik Həsən Əliyevin böyük rolu olub : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 9 sentyabr. - S.2. ; Yeni Azərbaycan. - 2012. - 25 dekabr. - № 237. - S. 8.

Məmmədov Q. Ömrünü təbiət elmlərinə həsr etmiş görkəmli alim : Həsən Əliyev // Azərbaycan. - 2015. - 15 dekabr. - № 276. - S. 11.

Məmmədov Q. Təbiətşünaslıq elmimizin iftixarı : [Həsən Əliyev haqqında] // Azərbaycan. - 2016. - 15 dekabr. - № 278. - S. 7.

Məmmədova S. Təbiətə vurgun alim : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 10 noyabr. - S. 4.

Mirtəqəvi H. Comərdlinin comərd oğlu : akademik Həsən Əliyev haqqında // Azərbaycan. - 2012. - 18 dekabr. - № 282. - S. 7.

Mirzəyev R. Təbiət vurğunu alim : Həsən Əliyev - 100 // Azərbaycan. - 2007. - 14 mart. - S.6.

Mükərrəmoğlu M. Akademik Həsən Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər keçirildi // Xalq qəzeti. - 2007. - 19 aprel. - S.7.

**“Təbiət fədaisi, elm təşnəsi-Həsən Əliyev”**
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:28.02.2017
Tirajı:100
Pulsuz